Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Şərəfli yolun yorulmaz yolçusu Mirzə İbrahimov

**Mirzə İbrahimovun 110 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2021**

**Tərtibçi:** **Könül Səmədzadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**"Şərəfli yolun yorulmaz yolçusu" -** Mirzə İbrahimovun 110 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2021. – 33 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2021**

# GİRİŞ

***Ey mənim xalqım, ey mənim ümidim və pənahım!***

***Ürəyimin istiliyi səndəndir, fikrim işığını səndən alır, həyatımın nəşə və sevincinə bais sənsən! Həyat yolunun sürüşkən döngələrində qolumdan tutan, məni yıxılmağa qoymayan sən olmusan. Amansız qorxu başımın üstünü alaraq məni ağır fikirlərə saldığı zaman, xoş günün dönük dostları, zəif və qorxaq yoldaşlar məndən üz döndərdiyi zaman yeganə dayanacağım sən olmusan.***

***O zaman ki, qaranlıq içərimə kölgə salmağa başlayıb, tənhalıq duyğusu ürəyimi qurd kimi yeməyə başlayıb, onda sənin munis, mehriban, müqəddəs səsini eşitmişəm. Bu səs məni həyata bağlamış, yaşamağa, mübarizə etməyə, çirkabları aradan qaldırmağa ruhlandırmışdır. Qoluma qüvvət verən, iradəmi möhkəmlədən bu səs sənin səsindir, ey mənim hər şeydən əziz, hər şeydən gözəl, hər şeydən yüksək, hər şeydən nəcib və mərhəmətli xalqım!***

**Mirzə İbrahimov,**
*Xalq yazıçısı*

**Xalq yazıçısı Mirzə İbrahimov Azərbaycanın sovet dövrü ədəbiyyatının beşiyi başında dayanan, onun zənginləşməsi yolunda istedad və əməyini əsirgəməyən, bütün varlığını, duyğu və düşüncəsinin var gücünü insan dühasının nailiyyətlərinə əsaslanaraq bədii təfəkkürün hüdudlarını genişləndirmək, sənətdə yeni yollar açmaq kimi nəcib və mürəkkəb vəzifənin şərəflə yerinə yetirilməsi işinə verən görkəmli sənətkarlarımızdandır.**

## Bölmə I

**...Azərbaycanın xalq yazıçısı, dramaturq, ədəbiyyatşünas və publisist, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, akademik Mirzə Əjdər oğlu İbrahimovun 110 illiyi tamam olur. XX əsr ədəbiyyatımızın tanınmış simalarından biri kimi onun meydana gətirdiyi əsərlərdə dövrün və zamanın dolğun mənzərəsi yaradılmışdır.**

**İlham Əliyev,**
**Azərbaycan Respublikası Prezidenti**

Azərbaycan sovet ədəbiyyatının təşəkkülündə və inkişafında Mirzə İbrahimovun xidmətləri misilsizdir. O, yaradıcılığa 30-cu illərin əvvəlindən başlamış, öz istedadı və əməyi sayəsində görkəmli sovet yazıçısı, ədəbiyyatşünas alim və fəal ictimai xadim dərəcəsinə qədər yüksəlmişdir. Onun əsərlərində müasir xalq həyatının canlı lövhələri, sovet adamının əməyi, mənəvi-əxlaqi sifətləri, arzu və düşüncələri ilə yanaşı, müasir cəmiyyətdə baş verən mühüm hadisələr və dövrün əsas meylləri öz parlaq inikasını tapmışdır. Ona görə də Mirzə İbrahimovun milli ədəbiyyatın qızıl fonduna daxil olan əsərləri ölkəmizin hüdudlarından uzaqlarda da milyonlarla qədrşünas oxucuların ürəyinə yol tapmış, onların ideya-əxlaqi cəhətdən daha da zənginləşməsinə kömək etmiş, sevinc mənbəyinə çevrilmişdir.

Mirzə İbrahimovun idrakı maraq dairəsi geniş, çoxşaxəli və zəngindir: şair hekayəçi, oçerkist, tənqinçi, dramaturq, publisist...Onun ilk mətbuat şeiri 1930-cu ildə "Aprel alovları" məcmuəsində çap olunub. Bundan sonra "Mədən səsləri",

“Neft”, Dneprostroy”, “Son döyüşə”, “Qırmızı snayper”, “Zərbəçi qız”, “Şota Rustaveliyə” və sair şeirləri dövri mətbuatda çıxır. Mirzə İbrahimov ilk tənqidi, publisist məqalələrini, hekayə və oçerklərini də otuzuncu illərdə yazmışdır. Onun “İnqilab və mədəniyyət”, “Kommunist” “Ədəbiyyat cəbhəsində”, “Şərq qadını”, “Gənc işçi” və başqa jurnal və qəzetlərdə çap etdirdiyi ilk qələm təcrübələrində yeni həyat tükənməz bir həvəs və ilhamla tərənnüm olunurdu. Bu əsərlərdə müasirlik, yeni dövrün nəfəsi, həyata bağlılıq güclü idi. “Zəhra”, “Mələk”, “Qaçaq”, “Qorxulu səs”, “Sənət aşiqləri”, “İran qızı” və s. hekayələrində Mirzə İbrahimov yaxından müşahidə etdiyi, tanıdığı sadə adamların həyatını, hərtərəfli öyrəndiyi hadisələri qələmə almışdı. O, bu dövrdə “Alagöz” adlı roman da başlamış, kiçik bir hissə çap etdirsə də yarımçıq qoymuşdur.

1932-ci ildə M.Qorkinin təşəbbüsü ilə yaradılan yazıçılar briqadasının tərkibində Mirzə İbrahimov beşilliklərin nəhəng tikintilərini və sosialist sənayesinin sürətli inkişafını öyrənmək üçün Ukraynaya gedur. Krımda, Donbas şaxtalarında və Dnepropetrovskin sənaye müəssələrində ilk yaradıcılıq səfərində olur. Gənc yazıçının aldığı böyük təəssürat nəticəsində “Bir cəbhədə”, “Əmək qəhrəmanı”, “Yeraltı dünya”, “Altı nömrəli domna” oçerkləri yaranır. Onun “Giqantlar ölkəsi” adlı kitabında toplanan bu kimi oçerklər ölkəmizdə sosialist tikintilərinin pofosunu, əzəmətini əks etdirir.

M.İbrahimovun ilk yaradıcılıq illəri uğurlu idi. Çünki yorulmadan çalışır, mütaliə edir, öz bilik və istedadının inkişafı qayğısına qalırdı. Onun 19 yaşında ikən Azərbaycan Proletar

Yazıçıları Cəmiyyətinə üzv qəbul olunması və iki il sonra Yazıçılar İttifaqının təşkilat komitəsinin məsul katibi seçilməsi təsadüfi deyildi. M.İbrahimov gənc kommunist və yazıçı kimi özünüdərketmə prosesində istedadı və bacarığı ilə ədəbi ictimaiyyətin diqqətini cəlb etmişdi. Bu zaman o, Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun iki illik hazırlıq şöbəsində təhsil alırdı.

1933-cü ildə M.İbrahimov partiyanın tapşırığı ilə Naxçıvan MTS-in siyasi şöbəsinə-"Sürət" qəzətinin redaktoru vəzifəsinə göndərilir. Kənd mühiti, kollektivləşmənin çətinlikləri ilə bağlı hadisələr həssas yazıçının yaradıcılığına təsirsiz qalmır, onun yazıçı təxəyyülü yeni mövzular, real bədii tiplərlə zənginləşir. "Həyat" pyesi də bu dövrün bəhrəsidir.

1935-1937-ci illərdə M.İbrahimov SSRİ Elmlər Akademiyasının Leninqraddakı Şərqşünaslıq institunun aspiranturasında təhsil alır. Burada o, professor E.Bertelsin rəhbərliyi altında C.Məmmədquluzadənin həyat və yaradıcılığı mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə başa çatdırır. Bakıya qayıtdığı vaxtdan o, ictimai-mədəni həyatın ən çətin, məsuliyyətli sahələrində işləməli olur. M.F.Axundov adına Azərbaycan Dövlət Opera və balet teatrının direktoru, sonra isə Xalq Komissarları soveti yanında incəsənət işləri idarəsinin rəisi vəzifəsində çalışır. Yazıçının ictimai-mədəni və partiya işini bədii yaradıcılıqla əlaqələndirə bilməsi onda müasirliyə, siyasi aktuallığa xas olan həssaslığı daha da gücləndirir.

Böyük vətən müharibəsinin ağır sınaq illərində milyonlarla sovet adamının ölkəmizdə "hər şey cəbhə üçün, hər

şey qələbə üçün" şüarını gündəlik həyat devizinə çevirdiyi bir vaxtda qələmini süngü ilə yanaşı tutan M.İbrahimov dinclik bilmədən çalışır. O, 1941-ci ildə Qızıl Ordu sıralarında Cənubi Azərbaycana gedir və "Vətən yolunda" qəzetinin məsul redaktoru vəzifəsində işləyir. Burada xatirələr, şeirlər, publisist məqalələr yazır, iri həcmli əsərləri üçün material topıayır. 1942-ci ilin may ayında Uzaq Şərqdə-Xabarovsk, Vladivastok, Birobican və s. yerlərdə sovet əsgərləri ilə, 416-cı diviziyanın cəbhəyə yola düşməyə hazırlaşan döyüşçüləri ilə hərarətli görüşləri M.İbrahimovun yaradıcılığında dərin izlər buraxır və bu, "Sarı sim", "Qardaşımdır mənim bu insanlar", "Anama deyin" kimi əsərlərdə bədii salnaməyə çevrilir. M.İbrahimovun dünya ədəbiyyatı, mədəniyyəti ilə əlaqəsi birtərəfli olmamışdır. Müharibədən sonra onun əsərləri Azərbaycanın hüdudlarını aşıb xarici ökə mətbuatında geniş yayılmışdır.

M.İbrahimovun müharibədən sonra Cənubi Azərbaycan mövzusunda yaratdığı hekayələr də bu cəhətdən səciyyəvidir. Yazıçı uşaqlıq illərində keçirdiyi doğma yerlərə qəlbən bağlı idi, qələmə aldığı natamam qalmış "İran qızı" və "Nakam məhəbbət" (1945) əsərləri də onun öz həmyerlilərinin taleyinə biganə qalmadığını göstərir. Cənubi Azərbaycanda xalqın həyatı, məişəti və mübarizəsi ilə yaxından tanışlıq ona "Cənub hekayələri", "Gələcək gün", "Güləbətin", "Xosrov Ruzbeh" və s kimi maraqlı əsərlər yazmağa imkan verir. Yazıçı bu əsərlərində xalqın mübarizə əzmini, inqilabi azadlıq ideyasının ölməzliyini həyəcanlı real lövhələrdə, gənc qəhrəmanlanların canlı surətlərində təsvir etməklə yanaşı, Cənubi Azərbaycan zəhmətkeşlərinin gələcəyə nikbin baxışını, inamını, istək və arzularını da vermişdir. "Cənub hekayələri"ndə M.İbrahimovun

bədii forma axtarışları, orijinal üslubu, tipikləşdirmə bacarığı və fərdi sənətkarlıq imkanı da daha aydın, qabarıq nəzərə çarpır.

Cənub mövzusu yazıçının ilk geniş əhatəli nəsr əsəri olan "Gələcək gün" romanında öz klassik formasını tapır. "Gələcək gün" romanı sovet nəsrində müasir Şərqin milli demokratik hərəkatı mövzusunda yazılmış dəyərli abidələrindən biridir. Dövlət mükafatına layiq görülmüş bu əsər M.İbrahimovun istedadının bir sıra xüsusiyyətlərini açmaqla yanaşı, ona dünya şöhrəti qazandırmışdır.

Yazıçı həyat materialını hərtərəfli, dərindən öyrənmədən mövzunu işləmir. O, müharibədən sonrakı illərdə bir sıra dövlət vəzifələrində işlədiyi vaxtlar Azərbaycan torpağını qarış-qarış gəzib dolanaraq "Böyük dayaq" romanı üçün material toplayır, qeydlər edir, fikirləşirdi. Əsər 1957-ci ildə çap olunmuşdur. Burada bərəkətli Muğan torpağı, qabaqcıl adamların yaradıcı əməyi, mübarizəsi, qayğı dolu həyatı və mənəvi-psixoloji aləmi zəngin boyalarla təsvir olunmuşdur. Şəxsiyyətə pərəstişin səbəbləri və onun acı nəticələri əsərin baş qəhrəmanı kolxoz sədri Rüstəm kişi surətində verilmişdir. Yazıçı subut edir ki, insan nə qədər şəxsi bacarığa, təcrübə və istedada sahib olsa da, böyük dayaqdan-xalqdan ayrı düşsə aqibəti acınacaqlı, müsibətli olar.

Əsərdə sosialist kəndinin əzəməti, əmək adamlarının kollektivçilik hissi, ümumxalq işinə sədaqəti, köhnəliyə və burjua qalıqlarına qarşı barışmazlığı güclü və təsirlidir. Yazıçının bu romanı bir sıra müasir və aktual problemlərə vaxtında toxunduğuna görə ciddi sosial əhəmiyyət kəsb edir.

## Bölmə II
## Yubiley tədbirlərinin keçirilməsi

Pandemiya ilə əlaqədar olaraq Azərbaycanın görkəmli yazıçısı M.İbrahimovun 110-illik yubileyi münasibəti ilə bir çox təhsil ocaqlarında, eləcə də kitabxanalarda yazıçının yaradıcılığı ilə bağlı tədbirlərin virtual şəkildə keçirilməsi nəzərdə tutulmuşdur. Elə bu münasibətlə də yazıçının həyat və yaradıcılığını əks etdirən virtual sərgilərin keçirilməsi məqsədəuyğundur. F.Köçərli adına Respublika Uşaq Kitabxanasında təşkil olunan "Xatirələr işığında" adlı virtual kitab sərgisinə kitabxananın fondunda olan ədəbiyyatlardan, elektron resurslardan istifadə etmək tövsiyə olunur. Bunun üçün ilk növbədə slaydlar hazırlanmalıdır. Həmçinin sərgidə M.İbrahimovun çoxşaxəli ədəbi yaradıcılığı dövründə yazdığı kitablar nümayiş olunur.

Kitabxanada təşkil olunan virtual sərgilər müxtəlif başlıqlar altında keçirilə bilər: Məsələn; M.İbrahimov-110, M.İbrahimov şəxsiyyəti, Görkəmli yazıçı və ictimai xadim, Sənətkar ömrünün izləri, M.İbrahimov və XX əsr Azərbaycan ədəbi-nəzəri fikri, "Xatirələr işığında" və s. "Xatirələr işığında" adlı sərginin nümunəsini təqdim edirik.

1.Başlıq: "Xatirələr işığında

2. Görkəmli şəxsiyyətlərin M.İbrahimov haqqında söylədikləri fikirlər.

3. Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası.

4. Kitablarının nümayişi.

5. Ailə albomundan fotoların nümayişi.




Gözüm Ol Mənim




## Görkəmli şəxsiyyətlərin Mirzə İbrahimov haqqında söylədikləri fikirlər:

1. Mirzə yorğunluq bilməyən, qəlbinin odu, alovu sönməyən, həmişə gənclik həvəsi, eşqi ilə nəfəs alan, əsərlərində təzəlik təravətini qoruya bilən yazıçımızdır.

**Süleyman Rüstəm,**

*Xalq şairi*

2. "Mirzə İbrahimovun bir sənətkar və ictimai xadim kimi geniş əhatəli fəaliyyəti mənə fransız maarifçilərini xatırladır. O da ensiklopedistlər kimi, hər şeydən əvvəl, öz xalqına yeni söz demək, yeni fikir aşılamaq istəyir".

**İsmayıl Şıxlı,**

*Xalq yazıçısı*

3. Biz hamımız ona sadəcə olaraq "Mirzə müəllim" deyirik. Bu, təsadüfi deyil. Çünki Mirzə İbrahimov sözün həqiqi mənasında bötöv bir ədəbi nəslin tərbiyəçisi və müəllimi olmuşdur. Ona görə də bu sevimli yazıçının adına ehtiram əlaməti olaraq "müəllim" sözünü əlavə edirik.

**İsmayıl Şıxlı,**

*Xalq yazıçısı*

4. M.İbrahimov sözün həqiqi mənasında, xalq adamı idi. Xalqın ürəyinə yol tapan böyük şəxsiyyət idi.

**Aqşin Babayev,**

*Professor*

5. “Onun qələmi həmişə cilalı, parlaq, kəsərli, heç vaxt qınına salınmayan silahdır”.

**Mir Cəlal Paşayev,**
*Yazıçı, professor*

6. M.İbrahimov bütün həyat və yaradıcılığı dövründə doğma ana dili məsələsinə, bu dilin müxtəlif problemlərinə taleyüklü bir məsələ kimi yanaşmış, bu yolda qarşıya çıxan bütün çətinliklərə öz mübarizəsi ilə cavab vermişdir. Bunu onun dillə bağlı yazdığı hər bir məqaləsi, o cümlədən yazdığı əsərlərin dilinin şirinliyi, əlvanlığı, kamilliyi də təsdiq edir.

**Buludxan Xəlilov,**
*Professor*

7. M.İbrahomovun ədəbi-nəzəri irsi onun bədii yaradıcılığı ilə bərabər XX əsr Azərbaycanının mədəni tərəqqisində böyük rol oynamış və bu irsin əxlaq və sənət dərsləri tükənməz bir məktəbdir.

**Şirindil Alışanov,**
*Professor*

8. Görkəmli yazıçı və ictimai xadim M.İbrahimovun milyon-milyon ürəklərə yol tapan gözəl əsərləri bu gün də gənc nəslin mənəvi tərbiyyəsinə kömək edir, onlarda vətənpərvərlik, doğma vətən torpağına sonsuz məhəbbət aşılayır. Onun ölməz əsərləri zaman-zaman müstəqil Azərbaycanın möhkəmlənməsi uğrunda mübarizə aparan insanlara xidmət edəcəkdir.

**Teymur Əhmədov,**
*Professor*

9. Oxucuların, tamaşaçıların qəlbinə yol açmaq, şüuruna yol tapmaq hünəri, zamanın hadisələrini, onların mahiyyətini, mütərəqqi ideal baxımından işıqlandırmaq əzmi M.İbrahimovun sənətini və sənətkarlığını səciyyələndirən xüsusiyyətlərdəndir.

**Mehdi Məmmədov,**
*Professor*

10. Mirzə İbrahimovun hər əsəri ədəbiyyatımızda böyük hadisəyə çevrilmişdir. Xüsusilə “Gələcək gün” romanı.

**Altay Məmmədov,**
*Ədəbiyyatşünas*

F. Köçərli adına Respublika Uşaq kitabxanasında Xalq yazıçısı M. İbrahimovun anadan olmasının 110 illiyi münasibətilə kiçik yaşlı uşaqlarla “Uşaqların sevimli yazıçısı” adlı onlayn söhbət keçirilir.

Onlayn söhbətə kitabxanaçı belə başlayır: Əziz balalar, şərəfli həyat və yaradıcılıq yolu keçmiş xalq yazıçısı M.İbrahimov xalqımızın iftixarı olan böyük və nüfuzlu sənətkarlardan biridir. M.İbrahimov həm də sizin sevimli yazıçınız idi. O, siz uşaqları heç vaxt unutmamış, həmişə uşaqlar bizim gələcəyimizdir demişdir. Biz yazıçılar gələcəyimiz olan uşaqlara çox borcluyuq deyirdi.

M.İbrahimov uşaqlar üçün yazıb-yaratmağı xoşbəxtlik sayıb, sizlər üçün maraqlı əsərlər yazmışdır. Onun uşaq əsərləri içərisində “Mehribanın dəftəri”, “Pərvizin həyatı” kitabları öz bədii dəyəri etibarı ilə diqqəti daha çox cəlb etmişdir. Bu əsərlərin qəhrəmanları müasir uşaqlardır. Yazıçı özünün “Qırmızı qalstuk”, “Fəridə və yoldaşları”, “Murovdağın ətəklərində”, “Birinci dərs” və s. hekayələrində də müasir uşaqları düşündürən, onların istək və arzularına cavab verən

məsələləri qələmə almışdır. Azərbaycan ədəbiyyatının və mədəniyyətinin ön xəttində gedən yazarlardan biri M.İbrahimovu daima dərin hüznlə yad edir, onun ruhuna dualar oxuyuruq. Yaxşı ki, belə yazarları tanımışıq, onun əsərlərindən bəhrələnmişik.

Tədbirdə kitabxanaçı "Pərvizin həaytı " adlı povestdən bir hissəni uşaqların nəzərinə çatdırır.

Mən hələ bilmirəm riyaziyyat nədir. Bir dəfə bu barədə Çimnaz müəllimədən soruşdum. O da xeyli çalışdı bizi başa salsın, ancaq heç bir şey başa düşmədiyimizi görüb dedi:

Hesab riyaziyyatın lap aşağı pilləsidir. Sağlıq olsa, yuxarı siniflərdə riyaziyyat keçəcəksiniz, onda bilərsiniz.

Müəllimə, yuxarı siniflərdə də bizə siz dərs deyəcəksiniz-deyib Səfa yerindən soruşdu:

-Yox, mən ancaq ibtidai sinifləri aparıram - deyib Çimnaz müəllimə gülümsədi. Fatma yerindən əl qaldırdı:

-Nə sözün var, Fatma?-deyib Çimnaz müəllimə ondan soruşdu. Fatma ayağa durub başını aşağı salaraq yavaşdan dedi:

-Müəllimə. Mən istəyirəm beşinci sinifdə də bizim müəlliməmiz siz olasınız.

Müəllimə də güldü, bütün sinif də. Səfa Fatmanı ələ saldı:

-Bəs niyə ağlayırsan?-deyib kim isə əlavə etdi.

Fatma ağlamırdı, ancaq onun səsi çox nazikdir, özü də danışanda sıxılır, başını aşağı dikir, sözləri də çox yavaş-yavaş deyir, buna görə də adama elə gəlir ki, ağlayır. Fatma qayıdıb Səfaya baxdı və dilini çıxartdı.

-Müəllimə, deyin, Fatma dilini çıxartmasın!-deyib Səfa şikayətləndi. Sinifdə qar-qur düşdü, uşaqlar hamısı yerindən

danışdı.

Müəllimə əlini stola döyüb sinfi sakit elədi:

-Bu nədir, uşaqlar? Belə eləsəniz dərs keçə bilmərik.

Səfa yenə nə isə demək istədi. Lakin müəllimə ona macal verməyib lövhənin qabağına çağırdı, vurma cədvəlindən suallar verməyə başladı:

-De görüm, dörd dəfə səkkiz neçə edər?

Uşaqlar əllərini qaldırıb barmaqlarını açaraq havada cürbəcür şəkillər göstərdilər. Lakin Səfanı başa sala bilmədilər.

-Müəllimə, dörd dəfə səkkizi soruşursunuz?-deyib o vaxtı uzatmaq istədi.

Müəllimə başını sinif dəftərindən qaldırıb ona baxdı:

_Soruşuram dörd dəfə səkkiz neçə edər? Cavab ver. Bunu gərək fikirləşmədən deyəsiniz, vurma cədvəlini əzbərdən bilmək lazımdır.

Səfa canını qurtarmaq üçün ağzına gələn rəqəmi dedi:

-Müəllimə, dörd dəfə səkkiz elər otuz dörd.

Müəllimə bir də Səfaya baxıb başını buladı və bizə tərəf döndü.

-Kim deyər?

Sinif əlini qaldırdı. Müəllimə mənə söz verdi. Cavabını söylədim. Bilmirəm nədənsə müəllimə yenə bir neçə sual verdi, sonra da bütün vurma cədvəlini əvvəldən axıra mənə dedirtdi:

-Pərviz, bu gündən hesabdan səni özümə köməkçi təyin edirəm. Səfadan başla, onunla hər gün bir saat hesabı təkrar edərsən.

Mən ayağa durub dedim:

-Baş üstə, müəllimə!

Yerimə oturanda qızardığımı hiss etdim, mənə elə gəldi ki, bütün sinif mənə baxır. Mən isə heç kəsə baxmırdım. Gözüm ancaq Çimnaz müəllimədə idi. Birdən sinifdəki bütün şeylər və bütün uşaqlar gözümdə dumanlanıb itdi, o cümlədən Çimnaz müəllimə də. Duman seyrəkləşəndə nə görsəm yaxşıdır:anam dayanıb Çimnaz müəllimənin yerində, bizə dərs verir! Tez gözlərimi yumub açdım, bir də baxdım: ay aman! Çimnaz müəllimə neçə də mənim anama oxşayırdı! Necə də mən bu vaxta qədər bunu görməmişəm. Çimnaz müəllimə də heç vaxt üz-gözünü turşutmur, qaş-qabağını sallamırdı. Gözləri anamın gözləri kimi qapqara və işıqlı idi, üzü də işıqlı və mehriban idi. Lakin yavaş-yavaş, bir az da diqqətlə baxdıqca görürdüm ki, Çimnaz müəllimənin üzü mənim anamın üzü kimi ağ deyil, gözləri də bir az balaca və girdədir. Ancaq üzündə elə mehriban bir şey vardı ki, onu mənim anama oxşadırdı.

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında xalq yazıçısı M.İbrahomovun yaradıcılığının oxucular arasında geniş təbliği üçün keçiriləcək tədbirlərdən biri də konfransdır. Video konfrans Zoom proqramı vasitəsilə onlayn şəkildə təşkil olunur.Təşkil olunan tədbiri kitabxananın müdriyyəti açıq elan edir.

Görkəmli dövlət xadimi və ədəbiyyatşünas M.İbrahimovun çoxşaxəli fəaliyyətindən, müasir Azərbaycan ədəbiyyatının inkişafındakı misilsiz xidmətlərindən söz açaraq, onun ictimai, bədii və elmi fəaliyyətinin gənc nəslə tanıdılmasının vacibliyini vurğulayır.

M.İbrahimov bütün yaradıcılığı və şəxsiyyəti ilə XX əsr Azərbaycanını təmsil edir. Əgər XX əsr Azərbaycanın mənəvi-

əxlaqi, sosial-siyasi mənzərəsi haqqında dolğun təsəvvür əldə etmək istəyiriksə, M.İbrahimovun yaradıcılığını öyrənməliyik. Azərbaycanın şimalı və cənubunda baş verən bütün olaylar (XIX vəXX əsrdə) M.İbrahimovun əsərlərində tarixi əsərlərdən daha dolğundur. “Gələcək gün” romanı Azərbaycan sovet ədəbiyyatının yox, ümumən Azərbaycan milli-mənəvi fikrinin gerçəkliyini ifadə edir. “O gün gələcək” - bu şüar deyildi, bütöv Azərbaycan arzusunun ifadəsi idi.

Tədbirin gedişində Xalq şairi Süleyman Rüstəmin M.İbrahimova ithaf etdiyi **“Ümidlə yaşayaq”** şeiri də oxucular tərəfindən səslənir. Şeiri diqqətinizə çatdırırıq.

Qələm dostum, deyirəm ki, çox da dolmuşuq yaşa,
Qəlbimizdə bu günəcən gənclik odu sönməyib.
Həqiqətin, səadətin carçıları olmuşuq,
Buna görə eşqimizin üzü bizdən dönməyib.

Ömrümüzün kitabına yazılmayıb yorulmaq,
Mahnımıza can veririk Vətən deyə, el deyə.
Bahar çağı bağçamızdan güllər dərib bir qucaq,
Dəstələyib dost ellərə göndəririk hədiyyə.

Məhəbbət də, sədaqət də tərəziylə çəkilməz,
Hər ikisi ölçülməyib parça kimi çərəklə.
Vətəninə məhəbbəti, sədaqəti olan kəs
Ömür sürər zəhmətilə qazandığı çörəklə.

Yadındamı, bir neçə il o tayında Arazın
Cavanlardan, qocalardan şikayətlər dinlədik.

Səadəti zəncirlənmiş hər oğulun, hər qızın,
Öz dilindən dərdli, qəmli hekayətlər dinlədik.

Orda hər gün gözümüzlə nələr, nələr görmədik
Qardaş gördük sinəsində yüz yaranın laləsi.
Qan donduran, faciəli nə səhnələr görmədik!
Bacı gördük düz sözüyçün qovulmuşdu işindən.

Məktəb deyil, zindanlardı hər tin başı tikilən,
Şah sarayı başdan-başa ölüm, qan məkanıydı.
Bilirdik ki, döyüşlərdə torpaqlara tökülən
İki yerə parçalanmış bir ürəyin qanıydı.

Sən, mən burda adlanırıq bəxtiyardan bəxtiyar,
El içində görünürük alnı açıq, üzü ağ.

Deyirəm ki, qoy çevrilsin həqiqətə arzular,
Əvvəlkitək sonu gerçək bir ümidlə yaşayaq!

Daha sonra tədbirdə iştirak edən qonaqlar "Mirzə İbrahimov şəxsiyyəti" mövzusunda məruzə söyləyirlər. Tədbirin sonu M.İbrahimovun həyat və fəaliyyətini əks etdirən sənədli filmlə başa çatır.

M.İbrahimov yaradıcılığının oxucular arasında geniş təbliği üçün keçirilən tədbirlərdən biri də yazıçının qələmə aldığı, heç zaman öz aktuallığını itirməyən romanlarından biri və ən birincisi "Böyük dayaq" romanının müzakirəsidir. Tədbir onlayn şəkildə təşkil olunur. Tədbirdə ədəbiyyatşünaslar, şair və yazarlar, mütaliəni sevən oxucular iştirak edirlər.

Tədbir "Böyük dayaq" filmindəki Pərişanın mahnısı ilə başlayır. Mahnının musiqisi görkəmli bəstəkar Fikrət Əmirova,

səsləndirilməsi isə Xalq artisti Flora Kərimovaya aiddir. Kitabxanaçı latış ədəbiyyatşünası Y.Çakursun M.İbrahimov yaradıcılığına verdiyi qiymətli kəlamla tədbiri açıq elan edir.

Latış ədəbiyyatşünası Y.Çakurs Mirzə İbrahimovu "Böyük dünyəvi problemlər qaldıran qüdrətli ədib" kimi səciyyələndirir, "Böyük dayaq" əsərinin ümumxalq şöhrətini onun sənətkarlıqla, ilhamla təsvirində, xəlqiliyində görür, maraqlı xarakterlərə, Azərbaycan torpağının misilsiz təbiətinə və müasir həyatına heyranlığını bildirirdi.

Əziz oxucu, bildiyiniz kimi Mirzə İbrahimovun "Böyük dayaq" ictimai-psixoloji romanı bir sıra müasir və aktual problemlərə vaxtında toxunduğuna görə, ciddi sosial əhəmiyyət kəsb edir. Sənətkarın irihəcmli sanballı əsərləri milli romana yeni keyfiyyətlər daxil etməklə yanaşı, müasir ədəbiyyatın yaradıcılıq üfüqlərini genişləndirir. Azərbaycan xalqının tarixi keçmişinə həsr olunmuş "Pərvanə" epopeyası da bu cəhətdən səciyyəvidir.

"Böyük dayaq" görkəmli yazıçımız Mirzə İbrahimovun eyniadlı romanı əsasında çəkilib. Əksər qəhrəmanlar, hadisələr isə real həyatdan götürülüb - Rüstəm, Qaraş, Səkinə, Pərşan, Maya, Kərəm və başqaları. Bu barədə Lumuxanım Ələkbərova bildirib ki, babası Rüstəm Abbas oğlu Tağıyev 1909-cu ildə İrəvanın Sərdərabad rayonunun Xeyirbəyli kəndində doğulub. Orada kolxoz sədri işləyən Rüstəm kişi ailəsi ilə birlikdə ötən əsrin 50-ci illərinin əvvəlində deportasiya olunaraq Sabirabad rayonunun Suqovuşan kəndinə gəlib və burada məskunlaşıb. Ömrünün sonuna, yəni 1975-ci ilə kimi Suqovuşan kəndindəki Həzi Aslanov adına kolxoza rəhbərlik edib.

M.İbrahimov kolxoz həyatından əsər yazmaq üçün Sabirabada gələrkən Rüstəm kişi onu öz evində qonaq edib. Rüstəm kişinin həyat yoldaşı Rübabə xanım üç ay onun qulluğunda dayanıb. Bu

üç ayda M.İbrahimov kolxoz həyatını, eləcə də ailədaxili münasibətləri diqqətlə izləyib və özünə lazım olan faktları toplayıb.

Bundan sonra M.İbrahimov "Böyük dayaq" romanını yazıb. Yazıçıya şöhrət gətirəcək "Böyük dayaq" romanı əsasında eyniadlı film isə 1962-ci ildə çəkilib. Görkəmli aktyorumuz Ələsgər Ələkbərov Rüstəm kişi obrazını böyük peşəkarlıqla yaradıb. Mirzə İbrahimovun "Böyük dayaq" (1957) romanı sovet dövrü Azərbaycan ədəbiyyatında kəndin mənəvi həyatından və problemlərindən, eləcə də şəxsiyyətə pərəstiş dövrünün törətdiyi çətinliklərdən bəhs edən ilk romandır. Məlumdur ki, sovet dövrü Azərbaycan ədəbiyyatında kənd həyatı birtərəfli şəkildə təsvir olunub. Bu, bir tərəfdən sosialist realizmi deyilən yaradıcılıq metodunun, digər tərəfdən isə şəxsiyyətə pərəstiş dövrünün tələbləri ilə bağlı olub. "Böyük dayaq" romanının əsas süjet xəttini kolxoz təsərrüfatının inkişaf yolları, ona rəhbərlik üsulu, habelə ailə-məişət zəminində yenilik və mühafizəkarlığın konflikti təşkil edir. Əsərin baş qəhrəmanı Rüstəm kişi bütün hadisələrin mərkəzindədir və ya onlarla əlaqəlidir. O, "Yeni həyat" kolxozunun sədridir. Müəllif təsərrüfata bu adı verməklə həm də ölkənin və xalqın gələcəyi haqqında özünün estetik idealını ifadə edir. Əsərdə Rüstəm kişi bütün ziddiyyətləri ilə bərabər, əsasən müsbət surət kimi təqdim olunur. O, İkinci Dünya müharibəsində mərdliklə döyüşən, işgüzar, pak təsərrüfat rəhbəri, Muğanın timsalında Vətənin gələcəyini dərindən düşünən bir insan kimi səciyyələndirilir. Bütün bunlarla bərabər, şəxsiyyətə pərəstişin əsas əlamətləri və acı aqibəti də onun simasında bədii şəkildə canlandırılıb. Onda öz xidmətlərinə güvənmək və hamıya böyüklük etmək meyli vardır. Bu cəhət isə onu səhvlərə, zorakı hərəkətlərə sövq edir. Rüstəm kişi güman edir ki, o, kolxozda bütün adamlardan üstündür. Yastı Salman, Lal Hüseyn, Yarməmməd kimi hiyləgər, yaltaq adamların şirin tərifindən xoşlanır. Köhnəliklə yenilik arasında ziddiyyətin olması səbəbindən o, get-gedə

ailəsindən və xalqından uzaq düşür. Oğlu Qaraşın şəhərdə oxuduğu zaman sevdiyi Mayanı evə toysuz gəlin gətirməsi, əvvəlcə Rüstəm kişinin ürəyincə olmur. Maya kəndə gəldikdən sonra istər Rüstəm kişinin ailəsində, istərsə də təsərrüfatda bir yenilik, bir canlanma əmələ gəlir.

Filmdə öz gözəlliyi ilə tamaşaçıları heyran edən Maya obrazını Tamella Rüstəmova canlandırırdı. Maya rejissorun təsadüfü tapıntısı olub. Rol üçün heç kimi bəyənməyən Həbib İsmayılov bir dəfə Tamella Rüstəmovanı tədbirlərdən birində görür və deyir ki, Maya bu xanım olmalıdır. Tamella o zamana qədər aktyor kimi fəaliyyət göstərməmişdi və Litva vətəndaşı ilə evli idi. Filmdə çəkilməyə onu birtəhər razı salırlar. Bu filmdən sonra Tamella Rüstəmova “Ulduz” filmində baş rola çəkilib, 1971-ci ildə isə “Axırıncı aşırım” filmində epizodik



rola dəvət alıb. Qaraş rolu Həsən Məmmədovun kinoda debütü idi. Filmdə atasının ona çəkdiyi şapalağı yəqin ki, xatırlayırsınız. Təbii alınsın deyə Həbib İsmayılov Ələsgər Ələkbərova (Rüstəm kişi) tapşırır ki, Qaraşa həqiqətən şillə vursun. Rüstəm kişi kimi zəhmli və boylu-buxunlu bir adamın şapalağı tapança kimi açılır və Həsən Məmmədov gözləmədiyi üçün bu səhnə həddən artıq real alınır. Kadrdan sonra Ələsgər Ələkbərov Həsən Məmmədovu qucaqlayıb gülərək üzr istəyir. Filmdəki Yastı Salman obrazını ifa edən aktyor Opera və Balet Teatrının solisti Firudin Mehdiyev idi. Naznaz roluna çəkilən Elmira Yadigarova da rejissorun təsadüfi tapıntısıdır. Maraqlıdır ki, həmin zaman aktrisanın 17 yaşı varmış, rola uyğun gəlsin deyə o az müddətdə 20 kilo kökəlməli olub.

 

Lakin ailədə Qaraşla Maya arasında yaranmış anlaşılmaz münasibətlərdən Yastı Salman və digərlərinin məharətlə istifadə etməsi ziddiyyəti daha da dərinləşdirir. Son nəticədə Rüstəm kişinin dilindən "xalqdan böyük dayaq yoxdur" etirafının səsləndirilməsi əsərin əsas ideyası kimi ümumiləşdirilir. Müəllif yeniliyi təmsil edən Maya, Qaraş, Şirzad, Qızyetər, Pərşan və başqalarının simasında kəndin sağlam mənəvi simasına işıq salıb. Səkinə və Telli arvad da yenilik tərəfdarlarına həmfikir obrazlardır. "Böyük dayaq" romanı müəllifin millilik və müasirlik mövqeyində dayanan bir sənətkar olduğunu sübut edir. Əsər əsasında eyniadlı film də çəkilib. Rüstəm kişinin nəvəsi L.Ələkbərova babasının həm romanda, həm də filmdə həyatdakı kimi təsvir olunduğunu deyib. Maraqlı süjet xətti, ekran işi, güclü aktyor oyunu insanı bu filmə dəfələrlə baxmağa məcbur edir, qəhrəmanlarla birlikdə onların taleyini yaşayırsan. Filmdəki Səkinə, yəni Rübabə xanım Rüstəm kişinin həyat yoldaşı, Qaraş - İsmayıl onun oğlu, Pərşan - Məsməxanım qızı, Maya - Flora dostunun qızı, çoban Kərəm - Kərəm isə qardaşı oğlu olub. Film Tovuz rayonunda çəkilsə də, bir neçə epizod Sabirabad rayonunda lentə alınıb. Ekran əsərinin sonundakı mənzərə isə Arazla Kür çayının qovuşduğu yerdir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında M.İbrahimovun 110 illik yubileyinin qeyd edilməsi ilə bağlı keçirilən tədbirlərdən biri də onlayn şəkildə təşkil olunan xatirə gecəsidir. Xatirə gecəsinə ədəbiyyatşünaslar, şair və yazıçılar, məktəb şagirdləri, oxucular qoşulur. Tədbir iştirakçılarını kitabxanaçı yazıçının həyat və yaradıcılığı ilə tanış edir. Azərbaycan xalqının tarixində elə parlaq şəxsiyyətlər olub ki, onların haqqında cild-cild kitablar yazılsa belə, yenə azdır. M.İbrahimov da belə unudulmaz sənətkarlardandır. Nasir, dramaturq, tərcüməçi, ədəbiyyatşünas, publisist, ictimai xadim, Azərbaycanın xalq yazıçısı, Azərbaycan elmlər akademiyasının akademiki, SSRİ Dövlət mükafatları laureatı, Beynəlxalq Nehru mükafatı laueratı, Azərbaycanın əməkdar incəsənət xadimi, Sosialist Əməyi Qəhrəmanı, Azərbaycanın və SSRİ-nin xalq deputatı...bütün bunlar M.İbrahimovun titullarının natamam siyahısıdır.

Bu böyük şəxsiyyətin keçdiyi həyat yoluna nəzər salanda, əsərlərinin sadəcə siyahısını gözdən keçirəndə, enişli-yoxuşlu, burulğanlı günlər yaşamış ədibin mübarizələrlə dolu ömrünü göz önünə gətirəndə insanın xəyalında bu böyük sənətkarın əyilməz, vüqarlı heykəli canlanır. Həyat yolu 1911-ci ildə Cənubi Azərbaycandan başlayan, 1918-ci ildə ailəsi ilə birlikdə Bakıya gələn, Balaxanı və Zabrat kəndlərində alın təri ilə çörək qazanan, sonralar ali məktəbdə və SSRİ Elmlər Akademiyasının Leninqraddakı Şərqşünaslıq İnstitutunun aspiranturasında təhsil alan, illər ötdükcə pillə-pillə yüksələn M.İbrahimov həm xalqımızın, ədəbiyyat tarixində, həm də ictimai fikir tariximizdə əbədi yaşayacaq bir simadır.

M.İbrahimovun ən böyük amalı xalqına xidmət etmək idi. "Böyük dayaq" romanında sənətkar yazırdı: "Ey mənim xalqım, ey mənim ümidim və pənahım! Ürəyimin istiliyi səndəndir, fikrim işığını səndən alır. Həyatımın nəşə və sevincinə səbəb sənsən. Amansız qorxu başımın üstünü alıb məni ağır fikirlərə saldığı zaman, xoş günün dönük dostları, zəif və qorxaq yoldaşlar məndən üz döndərdiyi zaman yeganə dayanacağım sən olmusan!".

Ulu öndərimiz Heydər Əliyev M.İbrahimov şəxsiyyətinə çox yüksək qiymət verirdi. Onun bu böyük sənətkar haqqında dediyi sözləri bir daha xatırlamaq yerinə düşər. Ümumilli liderimiz Mirzə İbrahimovun sənətini və şəxsiyyətini belə dəyərləndirirdi:

"Mirzə İbrahimov təvəzökar, mehriban, həssas bir insandır. Bütün Azərbaycan xalqının sevimlisidir, xalq yazıçısı kimi yüksək ada tamamilə layiqdir. Eyni zamanda onun yaradıcılığı ölkəmizdə layiqincə qiymətləndirilmiş, yazıçının kitabları Sovet İttifaqının hüdudlarından uzaqlarda oxunur və hər yerdə geniş şöhrət və rəğbət qazanmışdır".

Ulu öndərimizin bu kəlamı M.İbrahimovun 1981-ci ildə Sosialist Əməyi Qəhrəmanı kimi yüksək ada layiq görülməsi münasibətilə təşkil olunmuş mərasimdəki nitqindəndir. M.İbrahimov bütün şüurlu həyatı boyu Azərbaycan dilinin keşiyində bir sərhəd əsgəri kimi dayanmışdı. Azərbaycan dilinə həsr etdiyi məqalələrdə o, başqa xalqları öz əsarəti altında saxlayan, onun dilinə, mənəviyyatına qəsd edən işğalçıları lənətləyir, sözünü mətnaltı mənalarla, eyhamla yox, açıq-aydın, birbaşa deyirdi. Onun Azərbaycan dilinə həsr etdiyi bütün məqalələrində vətənini, xalqını, dilini dərin məhəbbətlə sevən bir şəxsiyyətin ürək yanğısı duyulur.

M.İbrahimovun çətin, ağır dəqiqələri çox olub. Amma o, bütün sınaqlardan qorxmadan, çəkinmədən, ləyaqətlə çıxıb. Onun qızı bəstəkar S.İbrahimova müsahibələrinin birində demişdi: “M.C.Bağırov atamı çağıranda anam bütün gecəni yatmazdı. Atam bizi öpüb gedərdi. Anam yatmayıb onu səhərə qədər gözləyərdi. Biz balaca idik. Nələr baş verdiyini anlamırdıq. Atam rəhmətə gedəndən sonra Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşı olmuş yazıçı Vasif Nəsirli arxivdən tapıb ki, heç demə, atamı da “xalq düşməni” elan ediblərmiş.

M.İbrahimovun çoxcəhətli, şaxəli yaradıcılığında səhnə əsərlərinin əhəmiyyətli yeri var. “Həyat”, “Madrid”, “Məhəbbət”, “Kəndçi qızı”, “Yaxşı adam”, “Közərən ocaqlar” pyeslərinin geniş mənada Azərbaycan dramaturgiyasındakı və səhnə sənətimizdəki əhəmiyyəti, mövqeyi də böyükdür. Yazıçının bütün yaradıcılığı kimi onun dramaturgiyası da milli mədəniyyətimizin, incəsənətimizin davamiyyət və irsiyyət ənənələri ilə bağlıdır. Elə möhkəm bağlıdır ki, onun ədəbi-dramaturji fəaliyyətini nə milli ədəbiyyatımızın tarixindən, nə də dramaturgiyamızın müasir problemlərindən, inkişaf məsələlərindən ayrı təsəvvür etmək, ayrı qiymətləndirmək heç vəchlə mümkün deyildir.

Onun həyatı, doğrudan da, zəngin və çoxşaxəlidir. Fərəhsiz və faciəli keçən uşaqlıq illəri, qaynar gəncliyin oxumaq, öyrənmək ehtirası, fabrik-zavod təhsili, ədəbi mühitdə ilk addımlar və ilk sevinclər...və sonra həyat dərsləri-müxtəlif vəzifələr, partiya-sovet aparatında, ədəbiyyat-mədəniyyət sahəsində rəhbər mövqelər, bütün bunlarla bir sırada bir-birinin ardınca yazılan sənət əsərləri (pyeslər, romanlar, hekayələr, povestlər, elmi-tənqidi yazılar, publisistik əsərlər, xatirələr, memuarlar), dünyanın müxtəlif ölkələrinə səyahətlər, ictimai-

siyasi fəaliyyət... Ustad tənqidçi Məmməd Arifin təbirincə desək, görkəmli klassik və müasir yazıçılarımızın çoxu eyni zamanda ictimai xadim olmuşlar, onlar dövlət işi ilə yaradıcılığı bir-biri ilə uyuşdurmuşlar. Bu uyuşma yazıçıları xalqla, həyatla daha möhkəm bağlamış, onları müasirlik mövqeyindən uzaqlaşmağa qoymamışdır.

M.İbrahimov şəxsiyyət idi. Azərbaycan ziyalılığını təmsil edən böyük şəxsiyyət ona qiymət verərkən hansı partiyanın üzvü olduğunu, hansı böyük vəzifələrdə işlədiyini yox, yalnız böyük insanlığını və şəxsiyyətini göz önünə gətirmək lazımdır.

O, çox təmkinli şəxsiyyət idi. Ömrünün müdriklik çağlarından dönüb arxaya boylananda bəlkə nəyəsə təəssüflənməyi olub-hansı əsərinisə tamamlamayıb, hansı işisə yarımçıq qoyub, amma heç vaxt özünə xas olan təmkinini pozmayıb. Həmişə çalışıb ki, tərəflər arasında sülh yaratsın, humanizm, barışdırıcı mövqe onun ictimai fəaliyyətinin başlıca xüsusiyyətlərindən biri idi. Amma yeri gələndə həmin təmkin müdrikliklə qoşa addımlayıbdı.

Təmkin və soyuqqanlılıq hətta ən gərgin və dramatik anlarda da onun xasiyyətini tərk etmədi.

Qətiyyətlə demək olar ki, poeziyada Süleyman Rüstəm, nəsrdə M.İbrahimov Azərbaycanın birliyi ideyasını hər ikisi Azərbaycan müstəqil olmayanda irəli sürmüşdülər. Şeirlə, nəsr əsərləri ilə. İndi Şimali Azərbaycan müstəqildir, azaddır. Lakin bütövlük ideyası hələ yaşayır.

“Cənub hekayələri” və “Gələcək gün” M.İbrahimovun şah əsərlərindəndir. Bu günün özündə də o əsərlər öz vətənpərvərlik missiyasını uğurla yerinə yetirirlər. Bənzərsiz elmi, bədii və publisistik əsərlər yaradan ədəbiyyatşünas alim M.İbrahimov

Azərbaycan dilinin inkişafı, şəffaflığı uğrunda daim mübarizə aparmışdır. Onun roman və povestləri müxtəlif dillərə tərcümə olunaraq keçmiş Sovet İttifaqının hüdudlarından kənarda da tanınmış, əsərləri əsasında bədii və sənədli filmlər çəkilmişdir. M.İbrahimovun dünya klassiklərinin əsərlərinin dilimizə tərcümə olunmasında da böyük xidmətləri olmuşdur. O, həm də görkəmli ictimai xadim idi. Ən böyük amalı xalqına xidmət etmək olan M.İbrahimov çoxşaxəli fəaliyyəti dövründə ana dilimizin saflığı uğrunda dönmədən mübarizə aparıb. Dövrünün milli ruhlu şəxsiyyəti olan ədibin əsərlərində doğulduğu torpağa, el-obaya, klassik ədəbi irsimizə, folklor qaynaqlarımıza, bütövlükdə Azərbaycan mədəniyyətinə dərin məhəbbət, soy-kökünə, milli adət-ənənələrimizə sıx bağlılıq var.

Zaman keçdikcə Mirzə İbrahimovun yaratdığı ölməz sənət inciləri heç vaxt öz təravətini itirmir və itirməyəcəkdir.

Əlbəttə, ömrün dinclik tapmadığı enişli-yoxuşlu yollarda nəfəs dərmədən, irəliləyən insanın ədəbi taleyi, vətəndaş ömrü təbii ki, məhsuldar və rəngarəng olmalı idi. Xalq yazıçısı Mirzə İbrahimov addım-addım qət etdiyi həyat yollarında belə bir ölməzlik, əbədiyaşarlıq qazanmışdır...

Mirzə İbrahimov 1993-cü il dekabrın 17-də Bakıda vəfat edib, Fəxri xiyabanda dəfn olunub.

Tədbir M.İbrahimovun "Pələng və insan" hekayəsi əsasında hazırlanmış səhnəciklə başa çatır.

(Səhnə meşə dekarasiyası ilə bəzədilir. Səhnəyə Nəzər kişini, pələngi və pişik rolunu ifa edən şagirdlər daxil olur. Pişik səhnədə görünür və gəzişir. Bu vaxt səhnəyə pələng daxil olur. Pişiyi görüb məəttəl qalır.)

I Oxucu (Pələng): Deyəsən sən də bizdənsən, pələngə oxşayırsan. Bəs niyə bu günə düşmüsən, niyə belə balacalaşmısan?

II Oxucu (Sarı Pişik): Çünki insan əlinə düşmüşəm.

I Oxucu (Pələng): O insan dediyin necə şeydir ki, səni bu hala salıb? Onu mənə göstər, gör sənin acığını necə çıxacağam! (Nəzər kişi səhnəyə daxil olur)
II Oxucu (Sarı Pişik): Bax, insan odur, gəlir.
I Oxucu (Pələng): Ey insan, dayan, səninlə davam var! Niyə bizim həmcinsimizi bu hala salmısan?
III Oxucu (Nəzər kişi): Neynək, davan var, gəl dava edək. Ancaq mən evdən xəbərsiz çıxmışam. Birdən sən mənə qalib gələrsən, meyitimi də götürən olmaz. Qarım yazıqdır, nigaran qalar qoy gedim xəbər verim, gəlim, vuruşaq.
I Oxucu (Pələng): Yaxşı, get qarına xəbər ver, amma tez qayıt.
III Oxucu (Nəzər kişi): Qayıtmağına mən qayıdacağam. Ancaq qorxuram sən məni aldadasan, qoyub qaçasan. Zəhmətim hədər gedə.
I Oxucu (Pələng): Boş-boş danışma! Hələ pələngin meydandan qaçdığını görən olmayıb.
III Oxucu (Nəzər kişi): Acığın tutmasın, pələng qardaş. Mən işimi ehtiyatlı görən adamam. Özüm də kasıb kişiyəm, nə vaxtımı, nə də qüvvəmi boş yerə sərf eləyə bilmərəm. Mən arxayın olmaq üçün ki, sən qoyub qaçmayacaqsan gəl zəhmət çək gir bu çuvala otur, məni gözlə, gedim qarıma xəbər verim, qayıdım, çuvaldan çıx, davamızı həll edək.
I Oxucu (Pələng): Nə deyirəm ki. (Pələng çuvala girir. Nəzər kişi çomağını götürüb düşdü pələngin üstünə vur ki, vurasan. Döydükdən sonra çuvalın ağzını açıb onu buraxır)
III oxucu (Nəzər kişi): İndi get, bir də mənim yolumu kəsmə!
II Oxucu (Sarı Pişik): Hə, indi bildinki, insan necə şeydir?
I Oxucu (Pələng): Bildim qardaş, bildim!
II Oxucu (Sarı Pişik): Şükür elə ki, sən onun əlindən bu cür qurtarmısan!
III oxucu (Nəzər kişi): (Nəzər kişi çuvalı çiynində sarı pişiyini sığallaya-sğallaya gedir.) Pişik deyil, pələngdir pələng! (İştirakçılar səhnəni tərk edirlər)

## Ədəbiyyat siyahısı

İnternetdə:
www.google.az
Əsərləri:
1. İbrahimov M.Seçilmiş əsərləri : İki cilddə I cild : Hekayə, Povest, Pyes.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2005.- 432 s.
2. İbrahimov M.Seçilmiş əsərləri: İki cilddə II cild .- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2005.- 520 s ;
3. İbrahimov M. Aşıq poeziyasında realizm.- Bakı: 1966.- 84 s.
4. İbrahimov M. Böyük satira ustası (Cəlil Məmmədquluzadə). Bakı: Azərnəşr, 1966.- 96 s.
5. İbrahimov M. Ədəbi qeydlər. Bakı: Azərnəşr, 1970.- 299 s.
6. İbrahimov M. Əsərləri: X cilddə I cild. Bakı: Yazıçı, 1978.- 512 s.
7. İbrahimov M. Əsərləri: X cilddə II cild. Bakı: Yazıçı, 1978.- 504 s.
8. İbrahimov M. Əsərləri: X cilddə III cild. Bakı: Yazıçı, 1979.- 592 s.
9. İbrahimov M. Əsərləri: X cilddə IV cild. Bakı: Yazıçı, 1979.- 506 s.
10. İbrahimov M. Əsərləri: X cilddə V cild. Bakı: Yazıçı, 1980.- 339 səh.
11. İbrahimov M. Əsərləri: X cilddə VI cild. Bakı: Yazıçı, 1981.- 376 s.
12. İbrahimov M. Əsərləri: X cilddə VII cild. Bakı: Yazıçı, 1981.- 332 s.
13. İbrahimov M. Əsərləri: X cilddə VIII cild. Bakı: Yazıçı, 1981.- 303 s.
14. İbrahimov M. Əsərləri: X cilddə IX cild. Bakı: Yazıçı, 1982 - 664 s.

15.İbrahimov M. Əsərləri: X cilddə X cild. Bakı : Yazıçı, 1983 - 507 s.
16.İbrahimov M. Gələcək gün: Roman.- Bakı: Maarif, 1983.- 472 s.
17.İbrahimov M. Gələcək gün.- Bakı: Çaşıoğlu, 2009.- 480 s.
18.İbrahimov M. Xəlqilik və realizm cəbhəsindən: Məqalələr.- Bakı: Azərnəşr,
1961.- 524 s.
19.İbrahimov M. Niyəsiz, necəsiz bir yazısan sən.- Bakı: Yazıçı, 1985.- 552 s.
20.İbrahimov M. Pərvizin həyatı: Povestlər və hekayələr.- Bakı: Gənclik, 1981.-
251 s.
21.İbrahimov M. Sarı sim: Xatirələr, məqalələr, oçerklər.- Bakı: Azərnəşr, 1958.-
301 s.
22.İbrahimov M.Tufanlara kömək edən bir qələm. Bakı: Azərnəşr, 1987.- 197 s.
Haqqında:
Kitablarda
1. Ənbiya oğlu Ə. İbrahimov Mirzə Əjdər oğlu // XX əsrin 100 görkəmli
azərbaycanlısı. – Bakı: “ Sumqayıt ”, 2002.- S.74.
2. Quliyev E. M.İbrahimov Ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri. - Bakı:
ADPU, 1997.- 96 s.
3. Muğanna İ. Mirzə İbrahimov (Cənub həsrəti ilə) // Seçilmiş əsərləri: VI cilddə. II
cild.- Bakı: “Avrasiya Press”; 2009.- S.413
4. Nəbiyev B. Xalq yazıçısı Mirzə İbrahimov // Xəzan vurmasın.- B.: Elm, 2006.-
S.387-392.
5. Kürçaylı Ə. Dağlarda // Seçilmiş əsərləri.- Bakı: Şərq-Qərb ,2004.- S.340.

Dövri mətbuatda

1. Əsədova İ. O, Azərbaycanın işıqlı gələcəyinə inanırdı: 17 dekabr görkəmli yazıçı
və ictimai xadim Mirzə İbrahimovun xatirə günüdür // Mədəniyyət.- 2010.- 17
dekabr.- № 89.- S.13.
2. Əzizov E. Mirzə İbrahimov və ana dili // Ədəbiyyat qəzeti.- 2011.- 18 fevral.-
№ 6.- S.1-2.
3. Xəlilzadə F. Sənət zirvəsinə inadlı yürüş: Mirzə İbrahimov haqqında //
Azərbaycan.- 2009.- 6 mart.- S.7.
4. Məmmədov Ş. M.İbrahimov və folklor: Mirzə İbrahimov -95 // Azərbaycan
müəllimi.- 2006.- 15 sentyabr.- S.7.
5. Mirzə İbrahimovun ictimai-siyasi həyatı // Respublika.- 2010.- 17 dekabr.- №
275.- S.5.; 18 dekabr.- № 276.- S.5.; 19 dekabr.- № 277.- S.2. ; 21 dekabr.- №
278.- S.4.; 26 dekabr.- № 283.- S.5.; 28 dekabr - № 284.- S.5.
6. Nəbioğlu S. Solmayan şöhrət: Mirzə İbrahimov müasirlərinin xatirələrində kitabı
haqqında // Ədəbiyyat qəzeti.- 2009.- 16 yanvar.- S.5
7. Niyarlı M. Sevimli ədibimizi xatırlarkən // Yazıçı qadınlar.- 2009.- № 03-06 (10).-
S.43-44.
8. Sərvi S. Bir ömür həsrət və 556 saylı "İş": Sosialist Əməyi Qəhrəmanı, xalq
yazıçısı Mirzə İbrahimov haqqında // El.- 2011.-№ 4.- S.14-21.
9. Ülvi A. Flora Xəlilzadənin yeni kitabı: 1934-cü ildə "Azərbaycan Yazıçılar
Cəmiyyəti" adı altında təşkil edilən "Azərbaycan Yazıçılar Birliyinin təşkilatçıları

haqqında“ kitabına rəy // Xalq qəzeti.- 2009.- 6 oktyabr.- № 221.- S.8.
10. Ülvi A. Mirzə İbrahimov xatirələr işığında: Teymur Əhmədovun “Mirzə
İbrahimov xatirələr işiğında” kitbı haqqında // Xalq qəzeti.- 2009.- 6 iyun.- S.8.
11. Vəfalı A. Yarımçıq əsər - bütöv ömür: Mirzə İbrahimov - 100
// Ədəbiyyat qəzeti.- 2010.- 29 oktyabr.- № 42.- S.1.

**Şərəfli yolun yorulmaz yolçusu Mirzə İbrahimov**

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**